# AZƏRBAYCAN RESPUBLİKASI
# DAXİLİ İŞLƏR NAZİRLİYİ
# POLİS AKADEMİYASI

**Elmi Şuranın 27 dekabr 2025-ci il**

**tarixli iclasının qərarı (protokol №2)**

## Beynəlmiləlləşmə siyasəti sənədi

**Bakı – 2025**

## Giriş

Müasir qloballaşma şəraitində polis hazırlığı sahəsindəki yeni çağırışlara uyğun rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması, insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olunması üçün ali təhsilin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir.

Təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resurslarının inkişaf etdirilməsi təhsilalanlara hərtərəfli bilik və bacarıqların aşılanmasına xidmət edir. DİN-in Polis Akademiyasının müasir çağırışlara uyğun inkişafına dəstək verilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi əsas prioritetlərimizdəndir.

## Fəaliyyətlər

Bu sahədə əsas fəaliyyət istiqamətlərimizə Akademiyanın beynəlxalq əlaqələrinin genişlənməsi, polis hazırlığını həyata keçirən xarici ali təhsil müəssisələri ilə əməkdaşlığın qurulması, birgə fəaliyyət sahələrinə aid saziş, protokol, anlaşma memorandumlarının imzalanması, təhsilverənlərin beynəlxalq təcrübə proqramlarına cəlb olunması, ölkə xaricində keçirilən elmi konfransların və elmi tədqiqat layihələrinin təşkil edilməsi, eləcə də  polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə qarşılıqlı olaraq müəllim mübadiləsinin həyata keçirilməsi daxildir.

## Missiya

Beynəlmiləlləşmə siyasəti üzrə Akademiyanın əsas missiyası 2030-cu ilə qədər dünyanın polis hazırlığı sahəsində fəaliyyət göstərən ən azı 30 qabaqcıl təhsil müəssisəsi ilə əməkdaşlıq quraraq, beynəlxalq standartlara cavab verən, innovativ, əməkdaşlığa açıq olan xüsusi təyinatlı bir təhsil müəssisəsi olmaqdır.

Polis Akademiyası xüsusi ali təhsil müəssisəsi olaraq, qloballaşma və beynəlmiləlləşmənin əhəmiyyətli olduğu bir zamanda beynəlxalq təcrübəyə əsaslanaraq öz fəaliyyətini təkmilləşdirməyi hədəfləyir. Bu missiyanın həyata keçirilməsində isə beynəlmiləlləşmə siyasətinin rolu danılmazdır. Xarici ali təhsil müəssisələri və hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, birgə elmi-tədqiqat fəaliyyətlərinin həyata keçirilməsi kimi istiqamətləri əsas hədəflərindən biri hesab edir. Bununla yanaşı, elmi-tədqiqat fəaliyyətinin beynəlxalq səviyyədə

tanıdılması, qlobal elmi mühitlə bilik və təcrübə mübadiləsinin aparılması da missiyanın ayrılmaz tərkib hissəsidir.

**Akademiyamızın Beynəlmiləlləşmə siyasəti özlüyündə müəyyən dəyərləri ehtiva edir:**

**Dəyərlər:**

**Qanunun aliliyi və hüquqi dövlət prinsipləri -** Bu prinsip çərçivəsində digər qurumlarla beynəlxalq əməkdaşlıq qurmaq.

**İnnovasiya və davamlı inkişaf -** Tədrisin təşkilində və elmi-tədqiqatlarda daim yenilənən beynəlxalq təcrübəyə əsaslanmaq.

**Milli təhlükəsizlik və dövlətçilik -** Beynəlmiləlləşmə siyasətini həyata keçirərkən dövlətçilik və milli təhlükəsizlik prinsiplərini nəzərə almaq.

**Multikultural dəyərlər və tolerantlıq -** Müxtəlif ölkələrlə qurulan əməkdaşlıqda qarşılıqlı hörmət və anlayış nümayiş etdirmək.

**Etik normalara əməl etmək -** Əməkdaş və təhsilalanların yüksək mənəvi dəyərlərə əsaslanaraq vəzifələrini məsuliyyət və vicdanla yerinə yetirmələri.

**Beynəlmiləlləşmənin məqsədləri:**

2025-2030-cu illər Strateji İnkişaf Planına uyğun olaraq təhsilin beynəlmiləlləşməsi istiqamətində Akademiya aşağıdakı hədəfləri və ona uyğun strateji fəaliyyət prinsiplərini müəyyən edir:

- polis hazırlığı sahəsində innovativ xüsusi ali təhsil müəssisəsi modelini yaratmaq;

- 2030-cu ilə qədər xarici ölkələrin ali təhsil müəssisələri ilə ən azı 5 ikitərəfli müqavilə bağlamaq;

- xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə təlim-tədris və elmi-tədqiqat sahəsində yeni əlaqələrin qurulması və mövcud qarşılıqlı əlaqələrin genişləndirilməsi;

- beynəlxalq tədbirlərdə iştirak - konfrans, seminar, yarış və forumların təşkili və ya onlarda fəal iştirakın təmin edilməsi;

- xarici ölkələrin təhsil və elmi-tədqiqat mərkəzləri ilə polisin fəaliyyət istiqamətlərinə uyğun birgə elmi tədqiqatların aparılması;

- xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə kursantlar üçün birgə təcrübə proqramlarının həyata keçirilməsi;

- tədris və elmi fəaliyyət sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi;

- Akademiyada son illər təhsil səviyyəsinin yüksəldilməsi, əldə olunan uğurlar barədə elektron resurslarda məlumatların yerləşdirilməsi, mütəmadi yenilənməsi;

- “Scopus” / “WoS” kimi nüfuzlu beynəlxalq elmi nəşrlərdə elmi məqalələrin dərcinin təşviq edilməsi;

- akademik və inzibati heyətin ən azı üç üzvünün qüvvədə olan, minimum B2 səviyyəsində dil biliklərini təsdiq edən beynəlxalq sertifikat əldə etməsi.

## İcra və Qiymətləndirmə

Akademiyanın müvafiq struktur bölmələri maraqlı tərəflərlə əməkdaşlıq edərək Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsinə cavabdehdir.

Beynəlmiləlləşdirmə fəaliyyətlərinin səmərəliliyini qiymətləndirmək və təkmilləşdirilməsi tələb olunan sahələri müəyyənləşdirmək məqsədilə mütəmadi monitorinq və qiymətləndirmə tədbirləri həyata keçirilməlidir. İl ərzində iki dəfədən az olmayaraq beynəlmiləlləşmə üzrə hesabat dərc olunur və Strateji İnkişaf Planına əsasən daxili qiymətləndirmə həyata keçirilir.

Beynəlmiləlləşmə siyasəti Akademiyanın inkişaf edən ehtiyac və məqsədlərinə uyğun olaraq vaxtaşırı nəzərdən keçirilə əlavə və dəyişikliklər edilməklə yenilə bilər.